## ATİB-İN 2-Cİ İLDÖNÜMÜ VƏ "QIZIL ÇARX" ADLI MÜKAFATLARININ TƏQDİMATI MƏRASİMİ

ATİB qurulduğu gündən etibarən Azərbaycan ilə Türkiyə arasındaki yüksək səviyyəli əlaqələrin hər sahədə daha da inkişaf etdirilməsi istiqamətində çox işlər görmüşdür. Bu fəaliyyətlərin müvəffəqiyyətlə həyata keçirilməsinə və qazanılan uğurlara bir sıra şəxs və təşkilatlar da öz töhfəsini vermişdir. Bu çərçivədə bu fəaliyyətlərin və qazanılan uğurların həm geniş ictimaiyyətə tanıtdırılmasının, həm də simvollaşdırılmasının zəruri olduğu fikrindən hərəkət edən ATİB İdarə Heyəti özünün 11 Fevral 2006-cı il tarixində keçirdiyi növbəti iclasında :

- **İLİN DÖVLƏT ADAMI**
- **İLİN QHT-si**
- **İLİN İŞ ADAMI**
- **İLİN ELM və SƏNƏT ADAMI**



Nominasiyalarında "Qızıl Çarx" mükafatının təsis edilməsini qərara alımışdır.

Alınan qərar çərçivəsində 31 illik fasilədən sonra ilk dəfə Türkiyə xaricində bir dövlətdən 27 iyul 2005-ci il tarixdə birbaşa uçuşla ŞKTR-yə və bir ay sonra ŞKTR heyəti tərəfindən Azərbaycana edilən tarixi səfərlər 2005-ci ildə baş vermiş ilin ən mühim hadisəsi kimi seçilmiş və İdarə Heyətinin yekdilliklə qəbul etdiyi qərarla bu məsələdə göstərdiyi qətiyyətli və cəsarətli addıma görə **Azərbaycan Respublikasının Prezidenti Zati Aliləri cənab İlham ƏLİYEV İLİN DÖVLƏT ADAMI** nominasiyasına layiq görülmüşdür

Eyni zamanda



- **İLİN QHT-s**i nominasiyası, ŞKTR-yə səfər zamanı ATİB ilə birinci əməkdaşlıq protokolunu imzalamaqla ölkələrarası qarşılıqlı iş birliyinin inkişafına xüsusi töhfəsini vermiş və Avrasiya İş Adamları Birliyinin (AVİB) yaradılması yolunda 1-ci Bakı Görüşündə fəal iştirak etmiş **ŞKTR Sənaye Palatasına**,
- **İLİN İŞ ADAMI** nominasiyası, bütün təzyiqlərə baxmayaraq ŞKTR-yə Türk bayrağı olmayan ilk xarici ölkəyə məxsus təyyarənin birbaşa uçuşunu həyata keçirən **cənab Nizami ƏLƏKBƏROVA** və
- **İLİN ELM və SƏNƏT ADAMI** nominasiyası isə ŞKTR-də Azərbaycanın dünyada fərqli və zəngin mədəni irsinin, o cümlədən musiqisinin təbliğində böyük rol oynamış **xanım AZƏRİNƏ** təqdim olunacaqdır.

Hələ də qəlblərdə yaşayan bu unudulmaz səfərin xatirələrini bölüşmək istəyi ilə 2005-ci ilin nominasiyaları 17 Aprel 2006-cı il tarixində, yəni ATİB-in 2-ci ildönümü münasibəti ilə keçiriləcək mərasimdə sahiblərinə təqdim ediləcəkdir.